*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 19 oktyabr 2020-ci il № 70 (2488) Qiyməti 30 qəpik

## Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib



*Oktyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib.*

- Əziz həmvətənlər.

Bu gün Ermənistanın faşist rəhbərliyi növbəti hərbi cinayət törədib. Gəncə və Mingəçevir şəhərləri raket atəşinə məruz qalıb. Bu namərd atəş nəticəsində soydaşlarımız həlak olub, yaralanıb. Allah bütün şəhidlərimizə rəhmət eləsin, yaralı soydaşlarımıza Allah şəfa versin!

Bu, bir daha Ermənistan rəhbərliyinin faşist mahiyyətini göstərir. Birinci dəfə deyil ki, bizim şəhərlərimiz atəşə məruz qalır və demək olar ki, hər gün Tərtər, Ağdam, Goranboy, Ağcabədi və digər şəhərlərə Ermənistan atəş açır. Bu atəş nəticəsində vətəndaşlarımız həlak olur, yaralanır, 2 mindən çox ev dağıdılıb, ya da ki, bu evlərə çox böyük ziyan vurulubdur. Ancaq bu namərd hərəkətlər Azərbaycan xalqının iradəsini qıra bilməz.

Ermənistan rəhbərliyi hərbi cinayət törədir. Dinc əhaliyə atəş açmaq, özü də əməliyyat operativ raket kompleksləri vasitəsilə atəş açmaq hərbi cinayətdir. Onlar bu cinayətə görə məsuliyyət daşımalıdırlar və daşıyacaqlar. Biz isə onların cavabını döyüş meydanında veririk. Şəhidlərin, günahsız insanların qisasını döyüş meydanında alırıq və alacağıq. Biz heç vaxt mülki əhaliyə qarşı mübarizə, müharibə aparmamışıq, bundan sonra da aparmayacağıq. Biz ermənilər deyilik. Bizim öz yolumuz var, bizim öz amalımız var və bütün Azərbaycan xalqı bu amal ətrafında birləşib. Bütün Azərbaycan xalqı həmrəylik, vətənpərvərlik göstərir.

Müzəffər Azərbaycan Ordusu gedən döyüşlərdə düşmənləri bizim torpağımızdan qovur və qovacaqdır. Mən demişəm ki, öz xoşları ilə bizim torpaqlarımızdan çıxmasalar, biz onları iti qovan kimi qovacağıq və qovuruq. Müzəffər Azərbaycan Ordusu hər gün yeni strateji məntəqələri, yeni yüksəklikləri, yeni yaşayış məntəqələrini işğalçılardan azad edir. Bizim qisasımız döyüş meydanındadır.

Bu günlər ərzində - 27-si sentyabr tarixindən bu günə qədər Ermənistanın hərbi potensialına sarsıdıcı zərbə vurulubdur. Sadəcə olaraq, vətəndaşlarımızın diqqətinə bəzi rəqəmləri çatdırmaq istəyirəm. Bildirməliyəm ki, çatdıracağım siyahı natamamdır, düşmənin daha böyük həcmdə texnikası məhv edilib və əlbəttə ki, döyüş zamanı bunun dəqiq hesablanması mümkün deyil. Ancaq gətirəcəyim rəqəmlər əyani şəkildə göstərir ki, biz döyüş meydanında tam üstünlüyü əldə etmişik və demək olar ki, Ermənistanın hərbi-texniki potensialını böyük dərəcədə sıradan çıxara bilmişik. Ancaq sual olunur: bu qədər silah, bu qədər texnika Ermənistanda haradandır? Ermənistanın hərbi büdcəsi bəlli, Ermənistanın dövlət büdcəsi də bəlli. Ermənistan bankrot ölkədir. Bu ölkənin xarici dövlət borcu ölkənin ümumi daxili məhsulunun 60-70 faizini təşkil edir. Bu ölkənin sərbəst valyuta ehtiyatları cəmi 1,5 milyard dollardır, bu da bank rezervləridir. Yəni bu, sərbəst vəsait deyil. Hansı pulla bu silah və texnikanı alır? Təkcə bu günə qədər məhv edilmiş və qənimət kimi götürülmüş texnikanın qiyməti aşağı 2 milyard dollar səviyyəsindədir. Ancaq hələ də bunların texnikası qalıbdır. Hələ də həm işğal edilmiş torpaqlarda, eyni zamanda, Ermənistan ərazisində. Sual olunur, kim onları silahlandırır? Bəzi hallarda bizə qarşı iradlar irəli sürülür ki, biz silahlanırıq, biz silah alırıq və bu, elə bil ki, vəziyyəti gərginləşdirə bilər, vəziyyəti məqbul olmayan məcraya istiqamətləndirə bilər. Ancaq sual olunur, bəs Ermənistan silahlanan-da? Bəs, bu kasıb, yoxsul ölkədə bu qədər silah-texnika haradandır və bu gün də onlara qaçaq yollarla, qaçaqmalçılıq sxemləri əsasında silahlar, texnika göndərilir və çox təhlükəli, böyük dağıdıcı gücə malik olan texnikalardır. Ona görə biz bu suallara cavab istəyirik və əminəm ki, biz bu cavabı alacağıq.

İndi isə son günlər ərzində Azərbaycan Ordusu tərəfindən məhv edilmiş Ermənistan texnikasının bir hissəsini xalqımın diqqətinə çatdırıram. Beləliklə, məhv edilmiş Ermənistan texnikası: tank - 234 ədəd məhv edilib, 36 tank hərbi qənimət kimi götürülüb, piyadaların döyüş maşını - 49-u məhv edilib, 24-ü hərbi qənimət kimi götürülüb. Özüyeriyən artilleriya qurğusu 16 ədəd məhv edilib, müxtəlif-çaplı toplar 190, "Uraqan" sistemi 2, TOS odsaçan 1, əməliyyat taktiki raket kompleksi "Elbrus" 2, "Toçka-U" 1, OSA zenit raket kompleksi 35, TOR zenit-raket kompleksi 3, KUB və "Kruq" zenit-raket kompleksi 5, radioelektron mübarizə sistemləri 9, S-300 zenit raket kompleksi 2, yük avtomobilləri 196-sı məhv edilib, 98-i qənimət kimi götürülüb. Hər bir adam, hər bir mütəxəssis bu texnikanın qiymətini açıq mətbuatdan götürə bilər və bu suallara biz cavab tapmalıyıq və tapacağıq.

**(Ardı 2-ci səhifədə)**

## Prezident İlham Əliyev Hikmət Mirzəyevə general-leytenant ali hərbi rütbəsinin verilməsi haqqında Sərəncam imzalayıb

General-mayor Hikmət Mirzəyevə general-leytenant ali hərbi rütbəsi verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də bununla bağlı Sərəncam imzalayıb.

## Birinci vitse-prezident Mehriban Əliyeva: Dinc vətəndaşların məqsədyönlü şəkildə hədəfə alınması insanlığa qarşı cinayətdir

*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Ermənistanın Gəncəyə növbəti raket hücumu ilə bağlı oktyabrın 17-də rəsmi "İnstagram" səhifəsində paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:*

"Nə dərəcədə insanlıqdan uzaq, yırtıcı olmalısan ki, şəhərin heç bir hərbi infrastrukturun olmadığı yaşayış məhəllələrinə gecə vaxtı, sakinlər yatarkən raket zərbələri endirilməsi barədə növbəti dəfə əmr verəsən?

Bu gecə Gəncəyə xaincəsinə edilən hücum təkcə Ermənistan hakimiyyətinin faşist mahiyyətinə və onun prinsipsizliyinə dəlalət etmir, həm də təcavüzkarın Azərbaycan Ordusu qarşısında total acizliyinin təzahürüdür.

Dinc vətəndaşların məqsədyönlü şəkildə hədəfə alınması insanlığa qarşı cinayətdir. Bu cinayətə laqeyd qalmaq isə onun iştirakçısına çevrilmək deməkdir!

Bu faciə nəticəsində həlak olanların ailələrinə və doğmalarına dərin hüznlə başsağlığı verirəm və bütün yaralıların tezliklə sağalmasını arzulayıram.

Ulu Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!".

# Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciət edib

(Əvvəli 1-ci səhifədə)



Şanlı Azərbaycan Ordusu öz xilaskarlıq missiyasını uğurla davam etdirir. Son günlər ərzində mən xalqıma xəbər verərək, yeni azad edilmiş kəndlərin adlarını açıqlamışdım. Bu gün də böyük məmnunluq hissi ilə, böyük sevinc hissi ilə azad edilmiş növbəti yaşayış məntəqələrinin adlarını əziz xalqıma çatdırmaq istəyirəm. Bu gün Füzuli rayonunun aşağıdakı yaşayış məntəqələri işğalçılardan azad edilib - Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və Füzuli şəhəri. Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!

Mən bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu münasibətlə əziz füzulililəri ürəkdən təbrik edirəm. Uzun illərin doğma torpaq həsrəti sona çatır. Biz öz üzərimizə düşən missiyanı şərəflə yerinə yetiririk, ölkəmizin ərazi bütövlüyünü bərpa edirik və bərpa edəcəyik. Füzuli uğrunda döyüşlər ağır döyüşlərdi. Vaxt keçəcək bu döyüşlər haqqında kitablar yazılacaq, əsərlər yazılacaq. Doğrudan da çox böyük peşəkarlıq, məharət, şücaət, fədakarlıq tələb edən döyüşlərdi. Çünki bu 30 il ərzində düşmən təmas xəttində o qədər möhkəm istehkam qurmuşdur ki, bəziləri hesab edirdi ki, Füzuli şəhərini işğaldan azad etmək mümkün deyil. Hətta ən tanınmış hərbi mütəxəssislər də belə fikirdə idi ki, Füzulini götürmək, onu işğaldan azad etmək üçün bəlkə aylarla vaxt lazım olacaq və bu əməliyyat uğurla nəticələnəcək-nəticələnməyəcək hələ böyük sual altında idi. Ancaq müzəffər Azərbaycan Ordusu bu şərəfli missiyanın öhdəsindən gələ bildi və qısa müddət ərzində Füzuli rayonunun əksər kəndləri və Füzuli şəhəri düşmənin tapdağından azad edildi. Füzuli şəhəri deyəndə, əlbəttə, biz hamımız bilməliyik ki, şəhərdən bir şey qalmayıb, əsər-əlamət qalmayıb, bir dənə də salamat bina qalmayıb. Çünki otuz il ərzində o vəhşilərin əlində idi, yırtıcı heyvanların əlində idi, çaqqalların əlində idi. Bütün binalar sökülüb, dini abidələrimiz sökülüb, hər şey talan edilib, evlərin dam örtükləri, pəncərələri, əşyaları, hər şey. Sanki vəhşi bir qəbilə bu şəhəri zəbt etmişdir. Füzuli şəhərinin qalıqları erməni faşizminin təzahürüdür və erməni faşizminin şahididir.

Biz Füzuliyə qayıdacağıq, biz bütün kəndləri yenidən quracağıq, abadlaşdıracağıq. O kəndlərə həyat qayıdacaq. Necə ki, vaxtilə Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan Ordusu Füzuli rayonunun 22 kəndini işğaldan azad edib, o cümlədən Horadiz qəsəbəsini. İndi baxın, görün necə gözəl məkandır. Horadiz qəsəbəsi çox abad, müasir şəhərə çevrilibdir. İşğaldan azad edilmiş kəndlərdə füzulililər yaşayır. Deyə bilərəm ki, bu günə qədər işğaldan azad edilmiş kəndlərdə Füzuli əhalisinin təqribən yarısı məskunlaşıbdır. Ancaq bu gün artıq füzulililərin yaşadıqları kəndlər azad edilib və oraya həyat qayıdacaq, onlar qayıdacaqlar, onlar orada yaşayacaqlar, öz əcdadlarının qəbirlərini ziyarət edəcəklər. Orada bərpa olunacaq məscidlərdə azan səsi eşidiləcək. Biz öz şərəfli missiyamızı yerinə yetiririk. Mən tam əminəm ki, bundan sonra da şanlı Azərbaycan Ordusu işğalçıları torpağımızdan qovmağa davam edəcəkdir.

Füzuli əməliyyatı rəmzi məna daşıyır. Bizim tarixi, qədimi yaşayış məskənimizi Azərbaycan özünə qaytardı, on minlərlə insanın o yerlərə qayıtmasının təmin etdi. Eyni zamanda, strateji nöqteyi-nəzərdən Füzulinin təmas xəttində yerləşən bir neçə müdafiə xəttinin yarılması bizə növbəti strateji üstünlüklər verir. Çünki Füzuli istiqamətində yerləşən bizim hərbi qüvvələrimiz bu günlər ərzində orada döyüşlər aparırdı. İndi təbii ki, bu, sirr deyil, biz Füzuliyə hansı tərəfdən girə bildik. Hansı böyük hərbi peşəkarlıq və rəşadət nəticəsində biz Füzulini işğalçılardan azad edə bildik. Ondan əvvəl Cəbrayıl şəhəri işğalçılardan azad edildi. Ondan əvvəl Hadrut işğalçılardan azad edildi. Xocavənd və Cəbrayıl rayonlarının, o cümlədən Füzuli rayonunun bir çox kəndləri işğaldan azad edildi. Məhz ondan sonra biz Füzuli şəhərini işğalçılardan azad edə bilmişik.

Düşmən son mərhələdə öz silahlarını yerə qoyub qaçmışdı. Bu gün tam məsuliyyətlə deyə bilərəm ki, Füzuli əməliyyatı hərbi kitablara daxil ediləcək. Təkcə Füzuli əməliyyatı yox, başqa əməliyyatlar. Bu gün məndə olan məlumata görə, hərbi mütəxəssislər artıq açıq-aydın bildirirlər ki, Azərbaycan Ordusu böyük döyüş qabiliyyətinə və texniki təminata malik olan bir ordudur.

Bu gün tarixi bir gündür. On yeddisi oktyabr nəinki füzulililərin xatirəsində Azərbaycan dövlətinin tarixində əbədi qalacaqdır. Bu gün biz hamımız, bütün Azərbaycan xalqı xalqımızın, dövlətimizin ən parlaq səhifəsini yazırıq, birlikdə yazırıq. Biz bu gün həmrəylik, qarşılıqlı dəstək, birlik göstərək bu şanlı tarixi yazırıq. Biz xoşbəxtik ki, bu anları yaşayırıq. Ancaq bu anları səbirsizliklə gözləyən, həyatdan gedən on minlərlə bizim qaçqın, köçkünümüz əfsuslar olsun ki, bu günləri görməyib. Ancaq bu gün əminəm ki, onların ruhu şaddır. Çünki onların doğma dədə-baba torpaqları işğalçılardan azad edilib.

Baxmayaraq ki, namərd, xain, alçaq düşmən hərbi cinayətlər törədir, dinc əhalini atəşə tutur, bugünkü atəş nəticəsində azyaşlı uşaqlar da həlak olub, mən bir daha demək istəyirəm ki, biz qisasımızı mülki vətəndaşlardan almamalıyıq. Biz döyüş meydanında qisasımızı alırıq, alacağıq, şəhidlərimizin, həlak olanların qanı yerdə qalmır və qalmayacaqdır. Bir daha Ermənistanın faşist rəhbərliyinə xəbərdarlıq edirəm ki, qalan torpaqlardan öz xoşu ilə çıxsın. Onsuz da biz onları oradan rədd edəcəyik. Onsuz da onların izi-tozu da o torpaqlarda qalmayacaq. Onsuz da onları biz sona qədər qovub torpağımızdan rədd edəcəyik. Öz xoşu ilə getsin!

Füzulini təslim etmək istəmirdi. Halbuki başa düşürdü ki, bunu saxlaya bilməyəcək. Cəbrayılı təslim etmək istəmirdi. Dünən, srağagün və bu gecə Cəbrayıl istiqamətində də uğurlu əməliyyatlar keçirilibdir, strateji yüksəkliklər götürülübdür. Bu haqda hələ ki, mən bir şey demək istəmirəm, hadisələri qabaqlamaq istəmirəm. Ancaq bu gün müzəffər Azərbaycan Ordusu öz məqsədinə çatır və çatacaq, bizim ərazi bütövlüyümüz bərpa edilir və ediləcək. Heç bir qüvvə bizi dayandıra bilməz. Heç bir qüvvə Azərbaycan xalqının iradəsi qarşısında duruş gətirə bilməz. Bunu hər kəs bilməlidir. Bizim qabağımızda heç kim dura bilməz. Çıxsın yırtıcı Ermənistan dövləti bizim torpağımızdan. Ondan sonra atəşkəs təmin edilər. Atəşkəs elan olundu, ondan bir gün keçmədi Gəncəni bombaladılar. Özü də haranı? Yaşayış massivlərini. Bu gün də haranı vurdular? Yenə də yaşayış massivlərini. Nə vaxt vurdular? Gecə saatlarında ki, daha çox insan həlak olsun.

Bu, insanlığa qarşı cinayətdir. Əgər beynəlxalq birlik Ermənistanı törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb etmək istəmirsə, - necə ki, Xocalı soyqırımına görə heç kim onları məsuliyyətə cəlb etməyib, - biz özümüz onları məsuliyyətə cəlb edəcəyik. Biz özümüz onların cəzasını verəcəyik, özümüz onları cəzalandıracağıq və bizim cəzamız ədalətli cəza olacaqdır. Onlar ən ağır cəzaya layiqdirlər. Ermənistanın hərbi-siyasi rəhbərliyi cinayətkarlardır və biz bu cinayətkarları cəzalandıracağıq.

"Qarabağ Ermənistandır" deyən Ermənistanın baş naziri, nə oldu, indi demirsən "Qarabağ Ermənistandır". Gəl Füzuliyə, sən orada bizim torpağımızı istismar edirdin. Gəl Cəbrayıla, gəl Hadruta, gəl azad edilmiş başqa yerlərə, de ki, "Qarabağ Ermənistandır". Oturmusan orada - İrəvanda, oradan bəyanatlar verirsən, dünya liderlərinin zəhləsini tökürsən, adam qalmayıb ki, telefonla zəng etməyəsən.

Niyə demirsən "Qarabağ Ermənistandır". Qorxursan, qorxacaqsan. Bəs, Azərbaycan xalqını təhqir edəndə, "Qarabağ Ermənistandır və nöqtə" deyəndə niyə belə cəsarətli idin? Kimə güvənirdin? Kimə arxalanırdın? Bilmirdinmi ki, gün gələcək bu əməllərə görə cavab verəcəksən. Bu gün gəlibdir və gəlir. Şuşaya Livandan, başqa ölkələrdən erməniləri gətirib məskunlaşdırmaq hərbi cinayətdir, Cenevrə Konvensiyasına ziddir. Nümayişkaranə bunu edirlər, televiziyada göstərirlər, necə ki, ermənilər gəliblər bizim qədim torpağımızda yaşamağa, işləməyə. İndi baxım görüm kim gələcək Şuşaya məskunlaşmağa. Cəbrayıla yeni yol çəkirdin Ermənistandan. Nə üçün? O bölgəni, Arazboyu bölgəmizi qanunsuz yollarla zəbt edib, ondan sonra orada erməniləri məskunlaşdırmaq üçün? Bizi fakt qarşısında qoymaq istəyirdin. Ermənistanda əhali az olduğu üçün xaricdən erməniləri müxtəlif yollarla, o cümlədən onları aldadaraq gətirib orada məskunlaşdırmaq nə məqsədi daşıyırdı? Bizim tarixi torpaqlarımızı əbədi işğal altında saxlamaq, əbədi işğalı təmin etmək və bizim torpaqlarımızı ermənilləşdirmək məqsədi? Baxın, onlar Füzuliyə hansısa bir eybəcər ad veriblər. Bu ad sizin başınıza dəysin. Bu ad cəhənnəmə getsin. Bu ad yoxdur artıq. Madagiz adı da yoxdur - Suqovuşandır. Biz başqa tarixi adlarımızı da bərpa edəcəyik. Şuşaya dırnaqarası qurumun parlamentini köçürürdün bəs. Get köçür, görüm necə köçürəcəksən! O saxta, quldur dəstə başçısının "andiçmə mərasimi"nin keçirildiyi yer nə gündə olub. Darmadağın etmişik oranı, darmadağın. Yeddi şərt qoyurdun bizim qarşımızda. Ultimatumla danışırdın. İndi görüm, hansı şərti qoyursan. Nə oldu bəs? Onun-bunun ətəyindən yapışıb, onun-bunun ayağının altına yıxılıb imdad diləyirsən ki, Azərbaycanı durdurun. Azərbaycana deyin ki, daha dayansın. Çıx torpağımızdan dayanaq. Rədd ol torpağımızdan dayanaq. Mən bunu demişəm, gizlətmirəm. Azərbaycan xalqı da bunu bilir, beynəlxalq aləm də bunu deyir. Hər gün bunu deyirəm, çıx de ki, sabah mən buradan çıxıram, dayanırıq. Bizə qan tökmək lazım deyil. Bizə torpaq lazımdır. Biz bu torpağı istənilən yolla alacağıq. Hər kəs bunu bilsin. Artıq son günlərin tarixi bunu göstərir.

Azərbaycan xalqını təhqir etmək sizə çox baha başa gəlir, Ermənistan rəhbərliyi, çox baha başa gəlir. Ermənistan əhalisi, nəhayət, bu kriminal rejimin başçılarını məsuliyyətə cəlb etməlidir. Artıq Ermənistanda hərbi komissarlıqlarda mitinqlər təşkil edilir, analar yolları kəsir, qoymurlar ki, uşaqları getsin başqa ölkənin torpağında ölsün. Mən də erməni xalqına müraciət etmişdim və bir daha müraciət edirəm: Qoymayın uşaqlarınızı! Nə işi var onların bizim torpağımızda? Öz ölkənizdə yaşayın. Bizim sizinlə heç bir işimiz yoxdur. Gedin yaşayın öz ölkənizdə, nə edirsiniz edin, amma bizim torpaqdan çıxın. Əminəm ki, erməni xalqı da öz cinayətkar xunta rejimi başçılarını məsuliyyətə cəlb edəcək. Biz isə haqq yolundayıq, ədalət yolundayıq. Biz haqlıyıq, biz öz torpağımızda vuruşuruq, öz torpağımızda şəhidlər veririk. Bizim savaşımız müqəddəs savaşdır!

Biz döyüş meydanında gücümüzü göstərdik, həm düşmənə, həm də bütün dünyaya. Döyüş meydanında göstərdiyimiz güc və onun mənbəyi Azərbaycan xalqının iradəsidir, Azərbaycan xalqının istedadıdır və bizim əldə etdiyimiz uğurlardır.

Bir daha demək istəyirəm ki, biz xoşbəxt insanıq, bizim nəslimiz xoşbəxtdir ki, bu sevincli günləri görə bilirik. Mən özümü xoşbəxt insan hesab edirəm ki, bu sevincli xəbərləri doğma xalqıma çatdırıram. Ali Baş Komandan kimi bütün işlərə rəhbərlik edirəm və Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da öz fəaliyyətimdə ölkəmizin, xalqımızın milli maraqlarını qorumaq üçün əlimdən gəlini əsirgəməyəcəyəm. Heç bir təhdid, heç bir hədə, heç bir təzyiq mənim iradəmə təsir edə bilməz. Bizim işimiz haqq işidir. Biz öz torpağımızda vuruşuruq, öz ərazi bütövlüyümüzü bərpa edirik.

Yaşasın Azərbaycan Ordusu! Yaşasın Azərbaycan xalqı! Qarabağ Azərbaycandır!

*Əks-hücum əməliyyatından reportaj*

# Qalibiyyət bayrağısan, Azərbaycan əsgəri!

*Füzuli şəhəri də işğaldan azad edildi! Köksüm ürəyimə darlıq edir...*

*Nə gözəl sevincdi, İlahi, nə gözəl sevincdi! Zaman-zaman itirdiyimiz torpaqları qaytara bilməmişik. İndi torpaqlarımızı döyüş-döyüş azad edirik! Torpaqlarımız işğaldan tamamilə azad ediləcək! Döyüş bölgəsindən gözəl ovqatla qayıtmışdım, reportajı daha gözəl ovqatla yazıram...*






Azərbaycan əsgərinin mövqe qələbəsi də bir tarixdi, mövqe qələbələri Böyük Qələbənin tərkib hissəsidi. Bu qələbələr düşmənə də, havadarlarına da ağır təəssüflər yaşadır: Azərbaycan Ordusu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemini hərbi yolla həll edir. Həm də qüdrətli ordu olduğunu təsdiqləməklə həll edir. Torpaqlarımızı işğaldan azad edəcək döyüşlərin əməliyyatıdı. Düşmən döyüş-döyüş geri çəkilir, strateji yüksəkliklər ermənisizləşdirilir, düşmən döyüş texnikalarını, uçuş aparatlarını, canlı qüvvəsini itirir. Neçə-neçə kəndi, Hadrut qəsəbəsini, Cəbrayıl şəhərini, Füzuli şəhərini işğaldan azad edən ordumuzun qalibiyyət döyüşləri məmləkət boyunca xoş ovqat yaradır. Bu qələbələrin hər biri tarixdi...

Yollar boyunca hərbçiləri gördüncə məktəblilərin hərbi salamını sevgi bilirəm. Belə gözəl salamın yaxın gələcəkdə qələbəylə dönəcək əsgərlərimizə veriləcəyinə inamım qələbələrə görə dönməz inamdı.

Döyüş bölgəsinə bu düşüncələrlə çatmışam.

Hər tərəfdə müharibə ovqatı var. Bu ovqatın qələbə ovqatı olduğunu duymaq çətin deyil. Müharibə aparmanın tələbləri imkan verən məsafəyəcən yaxınlaşmaq, müharibəni, döyüşləri görmək istəyənlərin sırasında 10-12 yaşlı iki uşaq da var, onların inadkar yerişini gözlərinə köçürənlər də...

Döyüşlər gedir...

Azərbaycan əsgərinin döyüşləri vətənsevərliyin döyüşüdü. Bu döyüşlər qüdrət döyüşləridi. Bu döyüşlər tarixi axarına qaytaracaq döyüşlərdi...

Tarixən bütün müharibələrdə narahatlıq, bəzən səksəkə, qorxu yaşanılıb - müharibə döyüşdü, döyüşlər dağıntıdı, ölümdü. Sentyabrın 27-də əks-hücum əməliyyatı kimi başlayan, işğaldan qurtuluş döyüşü kimi davam edən döyüşlərdə belə narahatlıq duyulmur, yaşanılmır. Bu müharibədə narahatlığın boyu Azərbaycan əsgərinin qazanacağı Böyük Qələbənin boyundan çox balacadı. Bu narahatlıq tarixi döyüşlərlə qazanılacaq tarixi qələbələrin tezləşməsinin gözləntiləridi...

Bir az əvvələ kimi artilleriyaçılarımızla nəfəs-nəfəsəydim, qarşı tərəfə mərmilər buradan atılacaqdı. Müharibə aparmanın tələbi kimi atışı xeyli aralıdan izləyirəm və bunu da jurnalist taleyimə şükranlıq bilirəm. Mərmilərin qarşı tərəfə - düşmənin mövqelərinə uçuşu könlümü tel-təndirir. Baxıram və az sonra qarşı tərəfdən eşidiləcək partlayış səslərini düşüncələrimə köçürəcəyim anların tezləşməsini arzulayıram; düşmənin mövqeləri atışın tezləşdiyi anlar qədərincə tez dağılacaq, düşmənçiliyi o mövqedən edənlər həmin müddət qədərincə tez həlak olacaq, ölümündən can qurtaranlar o müddət qədərincə tez qaçacaq! Atış içində düşündüklərimi pıçıldamağa macal tapmamış gözlədiyim səslər göy üzünə ürəyimdən boylanır, göy üzü mövqe qələbəsinin boyuna tən olan o səsləri ürəyimdə oxşayır...

Bir səs sonrakı səsin başlanğıcıdı elə bil. Səslərin bir-birini belə izləməsi, belə tamamlaması qələbə uvertürası kimi eşidilir. 2016-cı ilin aprelindən yaddaşıma bir əsgər sözü hopub: Öz əlimizlə öz torpaqlarımızı yaralamağa məcburuq. Dediklərini də xatırlayıram, özünü də. Düşündürücü düşüncələri vardı. Döyüş növbətçiliyinə gedəndə də, qayıdanda da, Lələtəpənin o tərəfinə boylanırdı. Qaşları çatılırdı, baxışları dolaşıq düşürdü. Şəhidlərdən söz düşəndə qürur qarışıq təəssüfü közə dönüb dodaqlarını yandırırdı. Onda həmin əsgərə "Torpaqlarımızın yaraları işğaldan qurtulanda qaysaqlayacaq. Bu məcburolma torpaqlarımızın işğaldan qurtuluşu üçündü", - demişdim. İndi artilleriya atışı getdiyi vaxtlarda düşüncələrimdə bir kükrəyiş duyuram. Bəlkə indi həmin əsgər də döyüşlərdədi, belə atışları o da görür, eşidir. Düşmənin mövqeyinin darmadağın edildiyini o da duyur. Bizim kimi ona da əyan olur ki, artilleriyaçılarımızın atdığı hər mərmi nifrətimizin, qəzəbimizin mərmisidi. Həmin əsgər də hamımıza belə gözəl ovqat yaşatdığına görə torpaqlarımızı belə yaralamağa məcbur olanlara ruhumuzun haraycısı deyirik...

Göy üzünü qara bulud topası bürüyür. Bu bulud təbiətin bulud deyil, bu bulud topası düşmənin üstünə çökəcək (və çökən!) azərbaycançılıq bulududu!..

Uzaqlarda mərmilər partlayır. Bu partlayışların səsi qələbə nidası kimi eşidilir. Dəqiqələr ötüşür, gümanlarımız təsdiqlənir. Tuşlayıcıları bağrıma basmaq keçir könlümdən...

Belə bir atışı 1992-ci ilin yayında döyüşlər zamanı görmüşdüm. Hər mərmi səsinə uçunurdum: bu, Tofiq Hüseynovun qisası, bu, Əlif Hacıyevin qisası, bu, qarda-sazaqda donanların qisası, bu, qarı dizləyə-dizləyə uzaqlaşanda kürəyinə güllə dəyən ağsaqqalın qisası, bu, əsir düşməsin deyə, əvvəl qızını, sonra özünü öldürən atanın qisası, bu, atasız-anasız qalan körpələrin qisası, ...



O anlarda baxışlarımız zabitin baxışlarına sarılıb Ağdərəyə meyillənmişdi...

Artilleriya atəşlərini Ağdərədə də, Kəlbəcərdə də, Zəngilanda da görmüşəm. Əsgərlərimizin atışları düşüncələrimin bəsirət gözünə dönüb, bu həmlələrin, hücumların qələbəni tezləşdirəcəyinə inanmışam, atışları artilleriyaçılarımızla nəfəs-nəfəsə izləmişəm. Hərdən mövqelərimizə düşən mərmilər düşüncələrimi çilikləyib, hərdən gümanlarımı dolaşığa salıb. Sentyabrın 27-dən başlayan əks-hücum əməliyyatında belə deyil; düşmən mövqelərimizə mərmi ata bilmir, döyüşlərdən çəkindiyinə görə mülki əhali ilə döyüşür, həm də uzaqdan-uzağa. Gəncəyə, Mingəçevirə, Tərtərə, Bərdəyə raketlər atır. Dünya hələ ki, səsini "içinə çəkib". "Azərbaycan!" deyənlər də, "can Azərbaycan!" deyənlər də bu döyüşlərin iştirakçılarına güvənir, inanır ki, döyüşlər Böyük Qələbəylə tamamlanacaq!..

Artilleriya atışından sonra əsgərlərlə söhbətləşirəm. Əsgərlər Suqovuşanın ermənisizləşdirilməsindən danışırlar. Hər kəlmədə qürur var, qürura tən olan həsəd var. Bu qürurun da başlanğıcı Vətən sevgisidi, həsədin də; qürur - qələbədi, həsəd o qələbənin iştirakçısı olmamağın həsədidi. Düşmənin mövqelərinə sarı bu qüruru, bu həsədi yaşayanların əhatəsindən baxmaq da qürurdu. Baxıram və xəyalımda yaxın, çox yaxın sabahlarda oraların da dağıdılacağını görürəm - təsəvvür edirəm. Düşündüklərimin əsgərlərin düşüncələriylə qoşalaşmasını, çulğaşmasını, bütövləşməsini, bütövləşib də əsgərlərin döyüş əzminə, qələbə ruhuna sarılmasını görməyi zamanın taleyimə iltiması bilirəm. Yelin yelə, əlin ələ, odun oda, közün közə, sözün sözə qovuşmasında yaşanılan duyğuların ən gözəli suyun suya qovuşmasında yaşanılmasıymış, həm də Suqovuşanda, istəyin istəyə, niyyətin niyyətə qovuşduğu yerdə! "Suqovuşanda yaşanılan sevinc Böyük Qələbə günü daha əzəmətlə yaşanılacaq böyük sevincin başlanğıcıdı", - deyirəm.

Bu əminliklə döyüşçülərimizə baxıram və yenə əsgər baxışlarında qədərsiz doğmalıq, qədərsiz sevgi görürəm, bu doğmalıqla, bu sevgiylə qoşa döyüş əzmi də, qələbə ruhu da.

Qələbə ruhunun cazibəsində əsgərlərlə, zabitlərlə əks-hücum əməliyyatından, ilkin qələbələrdən, ermənilərin ermənilíyindən - Mingəçevirə, Gəncəyə atılan raketlərdən, humanitar atəşkəs elan ediləndən sonra mövqelərimizin atəşə tutulmasından danışırıq. Çatılan qaşlar görürəm, tündləşən baxışlar görürəm, avtomatının qundağını sıxan barmaqlar görürəm.

"Atam müharibə veteranıdı. Uşaqlığımdan evimizdə müharibəli söhbətlər olub, atamın döyüş yoldaşları döyüşlərdən danışıb. Bakı Dövlət Universitetinin hüquq fakültəsini bitirdikdən sonra həqiqi hərbi xidmətdə oldum. Xidmətimi zabit kimi davam etdirməyi qərara aldım. Bu qərara görə indi bu döyüşlərin içində özümə nə qədər minnətdaram! Bu qərara gəlməsəydim, indi təəssüf ürəyimi üzürdü...", - zabit Rüstəm Abdullayevin kəlmələri könlümü tellən-dirir.

Bir neçə gün əvvəl döyüş bölgəsində zabit Rasif İbadov demişdi ki, Əlağa Şıxlinski artilleriyanın Allahıdı, artilleriya döyüşün. Artilleriyaçıların başladığı işi biz davam etdiririk, yəni, düşmən ilk ağır zərbəni artilleriyaçılardan, sonrakı zərbəni tankçılardan alır. Döyüşlər başlayandan bəri biz də düşmənə xeyli hərbi zərər yetirmişik.

Zabitin qürurlu kəlmələrini gizir Mirtağı Sadıqov tamamlamışdı:

- Bu döyüşlər Azərbaycanın işğaldan azad edilməsinə hesablanmış əks-hücum əməliyyatlarının davamıdı. Bu döyüşlər Azərbaycan Ordusunun qalibiyyət döyüşləridi və tam qələbəylə tamamlanacaq.

- Yəni, Azərbaycan əsgəri qalibiyyət bayrağıdı, - demişdim.

Bu söhbəti xatırladıram. Əsgər yoldaşının burxulan ayağına təpitmə qoyan əsgəri göstərən zabitin əsgərə sevgisi, deməli, Vətənə sevgisi mənə qazanılan qələbə qədər könül xoşluğu verir:

- Döyüşdə iştirak edənlərin hamısı bunların mənəvi qardaşıdı. Əsgərin tibbi yardıma ciddi ehtiyacı yoxdu, zaman-zaman burxulan ayağa təpitmə qoyulub. Bir-iki saata anadangəlmə olacaq.

O ucalıqda döyüşün içində döyüş iştirakçısı olan zabitin dediklərini həm etibarlı, həm kövrək, həm də qəti təsəlli bilirəm və Azərbaycan əsgərinə xitabən deyirəm: Qalibiyyət bayrağısan, Azərbaycan əsgəri!..

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

# “Bizim qisasımız döyüş meydanındadır”

*Əks-hücum əməliyyatı uğurla davam edir. Ordumuz düşməni müxtəlif istiqamətlərdən sıxışdırır, düşmən döyüş-döyüş geri çəkilir. Düşmənin neçə-neçə strateji yüksəkliklərdən, bu sıradan Murovdağdan, Hadrutdan uzaqlaşdırılması, Suqovuşanın, Cəbrayıl şəhərinin, Füzuli şəhərinin və neçə-neçə yaşayış məntəqələrimizin azad edilməsi düşmənin məğlubiyyət ərəfəsində olduğunun hərbi təsdiqidir.*

*Ordumuz əks-hücum əməliyyatını torpaqlarımızı işğaldan azad edəcək döyüş kimi davam etdirir.*



**Zabit Ağabala Manafov:**

- Bu gün milliyyətindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşının ən müqəddəs arzusu ordumuzun igid, mərd, qorxubilməz oğullarının sayəsində reallaşır. Xalqımızın mənəvi dəstəyindən, Ali Baş Komandanımızın qə-



tiyyətindən güc alan rəşadətli ordumuzun qəhrəman döyüşçüləri düşməni əzəli və əbədi torpaqlarımızdan qovub çıxarırlar. Bu döyüşlərdə düşməni ağır məğlubiyyətə uğradan ordumuz göstərdi ki, xalqımızın səbri sonsuz deyil. Xalqımız Ali Baş Komandanın əzmi, iradəsi, sərkərdəliyi sayəsində Böyük Qələbənin bir addımlığındadır.

Sentyabrın 27-də təxribata can atan düşmən müzəffər ordumuzun verdiyi adekvat cavab nəticəsində böyük itkilər verərək geri çəkilməyə məcbur edilir. Şəxsi heyətimiz əsl qəhrəmanlıq nümunələri sərgiləməkdədir. Azərbaycan əsgəri gücünü düşmənə bir daha sübut edir. Azərbaycan Ordusunun vətənpərvər, cəsur oğulları müqəddəs bir missiyanı yerinə yetirirlər. İllərdir düşmən işğalında olan əzəli və əbədi torpaqlarımızı azad edərək xalqımızı Qələbə xəbərləri ilə müjdələyirlər. Aparılan uğurlu əməliyyatların nəticəsidir ki, raket-artilleriya qoşunları və aviasiya vasitələri düşmənin komanda məntəqələrinə zərbələr endirir, çoxlu sayda canlı qüvvəsini, döyüş texnikasını və hərbi obyektlərini məhv etməkdə davam edir. Ordumuzun gücü, qüdrəti, əsgərlərimizin döyüş ruhunun yüksək olması ilə fəxr edirəm. Bu döyüşlər qəhrəman xalqımın tarixinə qızıl hərflərlə yazılır. Vətən müharibəsinin iştirakçıları olan bizlər bu tarixi hər zaman böyük fəxrlə xatırlayacağıq.

Bu gün ordumuzun yüksək döyüş hazırlığının qarşısında duruş gətirə bilməyən düşmən dinc əhalini hədəf alır. Bu yolla xalqımızın iradəsini, əzmini sınayır. Qəhrəman xalqımız düşmənin bu əməllərini onun son çırpınışları olaraq qiymətləndirir.

İşğaldan azad olunan hər qarış Azərbaycan torpağına şanlı bayrağımız sancıldıqca ordumuzda, döyüşçülərimizdə çox böyük ruh yüksəkliyi yaranır. Biz zəfər çalacağıq!

**Zabit Elşən Abdullayev:**

- Xalqımız, millətimiz, dövlətimiz Azərbaycan Ordusuna, biz döyüşçülərə inanır, güvənir. Biz də Ali Baş Komandanın əmri ilə Vətənin bir qarış torpağının da düşmən işğalında qalmasına imkan verməyəcəyik. Nə qədər ki, ərazi bütövlüyümüz bərpa olunmayıb, nə qədər ki, bu Vətəni qanları ilə yaşadan şəhidlərimizin ruhu rahatlıq tapmayıb, biz öz haqq savaşımızdan geri dönməyəcəyik. Canımızdan keçərik, Vətənimizdən, Azərbaycanımızdan keçmərik.

Məlum tarixdə məkrli düşmənin çirkin əməllərə yeni ərazilərimizi işğal etmək istəməsi Ali Baş Komandanın tarixi qərarı ilə sonuclandı. Düşmən təxribatının qarşısı alındı və ordumuz əks-hücum əməliyyatına başladı. Bu əməliyyatlar başlayan gündən şanlı ordumuzun igid zabit və əsgərləri böyük hünər və rəşadət göstərirlər. Məkrli düşmən igid oğullarımızın qəhrəmanlığı qarşısında duruş gətirə bilməyərək şərəf və ləyaqət simvolu olan döyüş bayraqlarını, silah və texnikalarını, yaralı yoldaşlarını və meyitlərini meydanda qoyaraq geri qaçırlar.

Qüdrətli ordumuz xalqımızı ard-arda qələbə xəbərləri ilə müjdələyir. Ali Baş Komandanın rəhbərliyi ilə igid oğullarımız düşməni əzəli və əbədi torpaqlarımızdan qovub çıxarırlar. Xalqımız illərdir həsrətini çəkdiyi Böyük Qələbənin bir addımlığındadır. Düşməni tarixi torpaqlarımızdan qovmaq bizim haqq işimizdir. Azərbaycan Ordusu bu haqq savaşından Böyük Qələbə ilə çıxacaq. Qarabağ Azərbaycandır!

**Gizir Vüsal Hacıyev:**

- Vətənimizin ərazi bütövlüyünün bərpa olunmasında iştirak etməyin qürurunu heç bir hiss ilə müqayisə etmək olmaz. Bu, sözlərlə ifadə olunmayacaq bir duyğudur. Amma tam əminliklə deyə bilərəm ki, xalqımız bu müqəddəs amal üçün mübarizə aparan ordumuzun bütün mərd oğulları ilə fəxr edir.

Sentyabrın 27-də erməni silahlı qüvvələri müxtəlif növ silahlardan, həmçinin ağır artilleriyadan istifadə etməklə bir neçə istiqamətdən yeni ərazilərimizi işğal etmək məqsədi ilə hərbi mövqelərimizi və yaşayış məntəqələrimizi atəşə tutdular. Ordumuzun bölmələri düşmən hücumunun qarşısını alaraq əks-hücum əməliyyatına başladı. Qüdrətli ordumuz qətiyyətlə, ruh yüksəkliyi ilə vuruşur və gedən döyüşlərdə öz üstünlüyünü sübut edir. Bu döyüşlərin Azərbaycan Ordusunun şanlı hərb tarixində xüsusi yeri olacaq.

Hər dəfə "Azərbaycan Ordusu" qəzetini əlimə alanda ilk olaraq ulu öndər Heydər Əliyevin "Azərbaycan Ordu-



su, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir" kəlamını oxuyurdum. Qəlbimin dərinliklərində Ulu Yaradandan mənə də Vətənimi işğaldan azad edəcək ordumuzun sıralarında döyüşməyi nəsib etməsini arzulayırdım. Şükürlər olsun ki, Allahım bu arzumu yaşamağı taleyimə yazıb. Bu gün fəxrlə deyirəm ki, ordumuz neçə-neçə şəhəri, qəsəbəni, kəndi işğaldan azad edib.

Bu savaş tezliklə Azərbaycan Ordusunun qələbəsi ilə sonuclanacaq. Vətənimiz zəfər bayraqları ilə bəzənəcək. Bu, xalqımızın mərd oğullarının, qüdrətli ordumuzun şəxsi heyətinin qətiyyəti sayəsində reallaşacaq. Uğurlarımızın davamlı olması diləyilə, yaşasın Azərbaycan Ordusu. Qələbə bizimdir, Qarabağ Azərbaycandır!

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Muxtar Məmmədov:**

- Torpaqlarımızın azadlığı, ərazi bütövlüyümüz uğrunda döyüşmək şərəf, vicdan borcumuzdur. Vətənimizin torpaqlarını azad görmək hər birimizin ən böyük arzusudur. Bu arzunun gerçəkləşəcəyi günü xalqımıza tezliklə şanlı Azərbaycan Ordusu yaşadacaq. Hər birimizin arzusudur ki, Qarabağımız, Şuşamız erməni faşistlərindən azad edilsin, o yerlərdə şanlı Azərbaycan bayrağımız dalğalansın. Bu arzuları yalnız Azərbaycan əsgəri reallaşdıracaq. Bölmələrimiz cəbhənin bütün istiqamətlərində inamla irəliləyir. Hər birimiz Böyük Qələbənin əsgərləriyik. Son damla qanımızadək döyüşəcəyik. Düşmənin murdar ayaqlarını müqəddəs torpaqlarımızdan birdəfəlik kəsəcəyik. Bu günlər biz əsgərlər ən şərəfli, ən qürurlu günlərimizi yaşayırıq. Şükürlər olsun, şəhərlərimiz, rayonlarımız, kəndlərimiz, yaşayış məntəqələrimiz el-el, oba-oba azad olunur. İllərdir ki, erməni təcavüzkarlarının işğalında olan, darmadağın edilən Cəbrayıl və Füzuli şəhərləri də rəşadətli ordumuz tərəfindən azad olundu. Bu zəfərlər Azərbaycan Ordusunun gücünü, peşəkarlığını bir daha göstərdi. Güclü ordumuzun qarşısında düşmən aciz qalıb. Döyüşlər zamanı görürdük ki, erməni əsgəri necə qorxur, necə qaçır, döyüşmək istəmir. Biz isə "Vətən uğrunda irəli!" deyərək döyüşə atılırıq. Bölmələrimiz düşmənin işğal etdiyi torpaqlarımızda illərlə qurduğu səngərlərini, döyüş mövqelərini, yerləşdirdiyi texnikalarını, canlı qüvvələrini məhv edir. Qarabağımıza, Şuşamıza doğru irəli! Qələbə bizimdir!

**Baş əsgər Nail Qasımov:**

- Xalqımız hər gün cəbhədən qələbə xəbərləri alır. Rəşadətli ordumuzun sentyabrın 27-dən başladığı əks-hücum əməliyyatı nəticəsində ermənilərin zəbt etdikləri tarixi torpaqlarımız azad olunur. Düşmənin hücumunun qarşısını qətiyyətlə alırıq, onları geri çəkilməyə məcbur edirik. Xankəndiyə, Şuşaya doğru Azərbaycan əsgəri hər ötən gün daha da yaxınlaşır. İşğalçı Ermənistan ordusunun bölmələrinin açdığı atəş nöqtələri Azərbaycan əsgəri tərəfindən yüksək dəqiqliklə susdurulur. Döyüşlər başlandığı gündən erməni işğalçılarının yüzlərlə canlı qüvvəsi məhv edilib. Çoxlu sayda döyüş texnikası ələ keçirilib. Bütün döyüşçülərdə qələbə əzmi var. Azərbaycan əsgəri cəbhədə göstərdiyi hünərlə işğala son qoyacaqdır. Yüzlərlə erməni faşistinin məhvi şəhidlərimizin qisasının alınması deməkdir. Şəhidlərimizin qanı yerdə qalmır. Ermənis-



tan ordusunun bölmələri getdikcə tamamilə darmadağın olur. Erməni əsgəri əlindəki silahını atır, döyüş mövqeyini qoyub qaçır. Ermənistanın qoşun birləşmələri məğlubiyyətlərini gizlətməməlidir. Onları qüdrətli Azərbaycan Ordusu məhv edib. Tarixi torpaqlarının müdafiəsinə qalxan Azərbaycan əsgərinin vətənpərvərlik ruhu, döyüş əzmi çox yüksəkdir. Hər gün azad olunan torpaqlar bizi yeni-yeni qələbələrə ruhlandırır. 30 illik həsrətə Azərbaycan əsgəri son qoyacaq. Xalqımız Qarabağ arzusuna qovuşacaq. Bu gün hər bir ölkə vətəndaşının ürəyi cəbhədədir. Döyüşən əsgərin yanındadır. Biz hər addımda xalqımızın ordusunun, Ali Baş Komandanının yanında olduğunu görürük. Xalqımız ordusundan yeni-yeni qələbə xəbərlərini səbirsizliklə gözləyir. Qələbə bizimdir. Doğru yoldayıq, Qarabağa doğru yoldayıq! Qarabağ Azərbaycandır!

**(Ardı 5-ci səhifədə)**

# “Bizim qisasımız döyüş meydanındadır”



(Əvvəli 4-cü səhifədə)

**Zabit Məhəmməd Axundov:**

- Sentyabrın sonunda başlayan əks-həmlə əməliyyatı zamanı bir daha əminlik hasil oldu ki, tariximizə dayanan, keçmişimizə bağlı olan bir xalq kimi formalaşmışıq. İllər ötsə də, zaman keçsə də, heç kim bizim Vətən sevgimizi nə azalda, nə də bundan məhrum edə bilər. Qanımız, ruhumuz vətənpərvərliklə yoğrulub bizim. Qələbələrin nəticəsində ürəyimizdəki ümid qığılcımları, qisas hissi, birlik duyğusu sanki silkələndi. Bir olduq. Birliyimizin fərqinə vardıq. Əsgərlərimiz böyük ruh yüksəkliyi ilə hər an önə atılmağa hazırdırlar.

Ən böyük arzum şəhidlərimizin qanını yerdə qoymamaqdır. Son döyüşlər bir daha ordumuzun güc və bacarığını düşmənə sübut etdi və düşmən bildi ki, onun qarşısında keçən əsrin sonlarındakı kimi pərakəndə ordu yox, daha güclü, daha hazırlıqlı, müasir silah və təchizatla təmin olunmuş bir ordu var.

Bu qələbələrin arxasında Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş ruhu, Qələbə əzmi dayanır. Qələbə ruhlu igid oğullarımız demək istəyirlər ki, gec və ya tez mütləq işğal altında inləyən torpaqlarımızı azad edəcəyik, şəhidlərimizin qanını yerdə qoymayacağıq və düşmənin layiqli cəzasını verəcəyik. Dövlətimizin, ordumuzun gücünə inanan Azərbaycan xalqı bizlərin sayəsində əmindir ki, tezliklə Qələbə müjdəli sabahların şahidi olacaq. Qələbə müjdəli sabahlar bizi gözləyir!

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Fərid Aslanov:**

- Bu gün oğullarımız ona görə hörmət və ehtirama layiqdirlər ki, onlar Vətənin keşiyini çəkməklə yanaşı, cəsur, inamlı və məğrur şəkildə düşmənin son təxribatının da qarşısını alaraq əks-hücum əməliyyatını şərəflə yerinə yetirirlər.

Sentyabrın 27-dən başlayan döyüşlər də sübut edir ki, ön xətdə səngərdə xalqın müdafiəsi üçün dayanmış əsgər və zabitlərimizin məqsədi, vəzifəsi birdir - Azərbaycan xalqının səbirsizliklə gözlədiyi Böyük Qələbəni təmin etmək. Hər bir əsgərimiz yaxşı başa düşür ki, şəhidlərimizin qanı yerdə qalmamalı, ana-bacılarımızın qisası alınmalı, ən əsası, üçrəngli bayrağımız bütün Azərbaycan ərazisində dalğalanmalıdır.

Qarış-qarış irəlilədiyimiz bütün torpaqlar tarixi Azərbaycan torpaqlarıdır. Vaxtilə bütün tarixi torpaqlarımızın geri qaytarılması arzusunda idik. Bu gün nəinki mənim, xalqımızın arzusu Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan Ordusunun şəxsi heyətinin sərgilədiyi qəhrəmanlıq nümunələri sayəsində reallaşır. Bütün arzularım həyata keçib, inanıram ki, bu arzum da tezliklə həyata keçəcək. Fəxr edirəm ki, qələbələr qazanan şəxsi heyətin sıralarında mən də varam.

Vətəni müdafiə etmək, onun uğrunda qan tökmək, canımızı fəda etmək vətəndaşlıq və əsgəri borcumuzdur. Ata-babalarımızdan əmanət olaraq aldığımız, üzərində xoşbəxt və firavan yaşadığımız, yer üzünün cənnəti olan bu gözəl yurdumuzu onun üzərində atalarımızın qurduqları sivilizasiya və mədəniyyət xəzinələrini, dilimizi, mənəviyyatımızı qoruya bilmək, yaşatmaq və gələcək nəsillərə ötürmək üçün onu işğaldan azad etməyə borcluyuq.

Suqovuşanın, Cəbrayıl şəhərinin, Füzuli şəhərinin, Hadrutun və digər yaşayış məntəqələrimizin azad edilməsinin, qazanılan zəfərlərin tezliklə davamı gələcək. Azərbaycan Ordusunun inkişafı Ağdamdan, Xankəndidən, Şuşadan keçən Qələbənin sevincini yaşamağa, adını qeyd etmədiyim digər tarixi torpaqlarımızda da Azərbaycan bayrağını dalğalandırmağa imkan verəcək.

**Baş əsgər Qasım Qurbanov:**

- Sentyabrın 27-dən düşmən təxribatına cavab məqsədilə başlayan döyüşlər mənim yaddaşımda unudulmaz iz buraxıb. Həmin gün düşmənin hücumunun qarşısını almaq



və onları yerində oturtmaq məqsədilə əks-hücum əmri aldıq. İrəlilədikcə şəxsi heyətimizin sevincinin həddi-hüdudu yox idi. Həmin an Qələbə sevincini yaşayan əsgərlərimizdən bəziləri Vətəni tərənnüm edən şeirlər söyləyir, bəziləri muğam ifa edir, bir qismi isə rəqs edirdi. Bir sözlə, torpaqlarımızı azad etmək hissi hər birimizi istənilən anda yaxalaya biləcək ölüm hissindən güclü idi. Elə bu sevinclə, əzmlə bəzi yaşayış məntəqələrimizi geri aldıq və dövlət bayrağımızı həmin yüksəkliklərdə dalğalandırdıq. Həyatımın ən sevincli anlarından birini yaşadım. Bu sevinci sözlə ifadə etməyə çətinlik çəkirəm...

Son döyüşlərin digər döyüşlərdən fərqi, bu döyüşlərdə zabit, əsgər və xalq birliyinin ən yüksək səviyyədə olması idi. Ən əsası odur ki, həyati əhəmiyyətli Qələbə qazanaq, Qarabağımızı tamamilə işğaldan



azad edək. İstər sülh yolu ilə olsun, istərsə də müharibə yolu ilə, fərqi yoxdur bizim üçün. Ali Baş Komandanımız hansı yolu məsləhət biləcəksə, biz o yolla gedəcəyik. Torpaqlarımızın işğaldan azad olunmasına nail olacağıq. Azərbaycan xalqına silah qaldıran düşmənin bu torpaqlarda ölüm hökmünü verəcəyik. Torpaqdan pay olmur. Onu hər bir xalq qanı bahasına əldə edir. Düşmən bilsin ki, qanımız bahasına olsa belə, torpaqlarımızı azad edəcəyik. Azərbaycan əsgəri atalarımızın, babalarımızın yurdunu tezliklə azad edəcək.

Qaç erməni əsgəri, Azərbaycan əsgəri gəlir...

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Ramin Bağırov:**

- Ordunun döyüş qabiliyyəti əsgərin döyüş hazırlığı və döyüş ruhundan asılıdır. Ermənistan tərəfindən işğal edilmiş torpaqlarımızın geri qaytarılması üçün güclü hazırlığa, maddi-texniki bazaya malik ordunun olması əsas şərtdir. Bu gün şəxsi heyətimiz elə bir səviyyədə döyüş hazırlığına malikdir ki, artıq düşmən qorxu içindədir. Əgər biz əlimizə silah almışıqsa və bu silahdan Vətənin qorunması və azadlığı naminə istifadə ediriksə, bu bizim şərəf yolumuzdur.

Mübariz İbrahimov, Polad Həşimov, Fərid Əhmədov, Çingiz Qurbanov və digər şəhidlərimizin keçdiyi şərəfli həyat yolu bugünkü hərbçilərə, xüsusən də əsgərlərə Vətən sevgisinin aşılanması üçün bir məktəbdir. Prezident, Ali Baş Komandan İlham Əliyev xalqımızın iradəsini ifadə edərək bu döyüşlər zamanı deyib ki, Azərbaycan bir qarış torpağını belə düşmənə verməyəcək, axıra qədər gedəcək. Azərbaycan əsgəri bu fikirləri rəhbər tutaraq döyüşür, torpaqlarının işğaldan azad olunmasında fədakarlıq nümayiş etdirir.

Bütün bunlar qorxu bilməyən, torpaqlarımızın işğaldan olunması üçün alışıb-yanan, təşnə olan əsgərlərimizin hesabına mümkün oldu. Özümü ona görə qürurlu hesab edirəm ki, mən də bu döyüşlərin birbaşa iştirakçısıyam. İnanırıq ki, qələbələrin davamı gələcək və mənim də Böyük Qələbədə töhfəm olacaq.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Mətləb Həsənov:**

- Ətrafımızdakı insanlara, cəmiyyətə verdiyimiz töhfələr və bunun əsasında yaranan xoş məqamlar həyatımızın ən dəyərli anlarını təşkil edir. Vətənimizə, xalqımıza, cəmiyyətimizin inkişafına səmərəli xidmət etmək naminə göstərdiyimiz fəaliyyət sağlam gələcəyimizin formalaşması deməkdir. Bu baxımdan Vətənimizə xidmət şərəf borcumuzdur.

Bu gün bütün hərbi hissələrdə, eləcə də cəbhə bölgələrində əsgəri xidmət üçün hər cür şərait yaradılıb. Son döyüşlər də onu sübut edir ki, hərbçilərimizin döyüş ruhu, vətənpərvərlik hissi çox yüksəkdir. Heç vaxt kiminsə torpağında, var-dövlətində gözümüz olmayıb. Həmişə qonşularımıza humanist yanaşılıb, onlara öz ərazilərimizdə yaşamaq üçün hər cür şərait yaradılıb. Amma bütün bunlar o demək deyildir ki, biz daha kiməsə halal torpaqlarımızdan pay verə bilərik. Qan tökülməsini istəmirik, amma torpaq uğrunda döyüşmək də, vuruşmaq da amalımızdır. Bu gün Milli Qəhrəmanlarımızın, igidlərimizin döyüş yolu bizim hər birimiz üçün örnəkdir. Onların şücaəti bir daha təsdiq edir ki, həyat üçün doğulanların Vətən uğrunda ölməsi danılmaz həqiqətdi, şərəfdi. Bu şərəfin daşıyıcısı olaraq ata-babalarımızdan əmanət olaraq aldığımız, üzərində xoşbəxt və firavan yaşadığımız, yer üzünün cənnəti olan bu gözəl yurdumuzu yaşatmaq və gələcək nəsillərə ötürmək üçün onu müdafiə etməyə, qorumağa və əlbəttə ki, azad etməyə hər an hazırıq. Bu döyüşlər onu göstərir ki, tezliklə ermənilər tərəfindən işğal olunmuş 20 faiz torpaqları-



mızın və 1 milyondan çox qaçqın və məcburi köçkünümüzün taleyi xalqımızın igid oğlanlarının şücaəti, rəşadəti nəticəsində həll ediləcək, hərb tariximizə yeni səhifələr yazılacaq və həmin səhifələrə bizim də adımız həkk olunacaq. Xalqımız o günü səbirsizliklə gözləyir... Azərbaycan Ordusunun şəxsi heyəti də həmçinin...

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Elvin Məmmədov:**

- Düşmən əsgəri ordumuzun gücü qarşısında duruş gətirə bilmir, qaçır. Onlar artıq anlayıblar ki, işğal etdikləri bu torpaqların əsl sahibləri torpaqlarının müdafiəsinə qalxan, onun uğrunda canından belə keçməyə hazır olan azərbaycanlılardır. Hər birimiz torpaqlarımızın son qarışı belə azad olunanadək döyüşəcəyik. Azad olunan ərazilərimizdə erməni vəhşilərinin tarixi abidələrimizi, müqəddəs ocaqlarımızı, məscidlərimizi, əcdadlarımızın uyuduğu məzarlıqları necə dağıtdığını görürük. Təsəlli onunla tapırıq ki, artıq haqq, ədalət bizim tərəfimizdədir. Torpaqlarımız erməni vəhşilərinin işğalından azad olunur. Şanlı bayrağımız elimizdə, obamızda əzəmətlə dalğalanır. Xalqımız zəhmətkeş, əməksevər, torpağına bağlı xalqdır. İşğaldan azad olunan o ərazilərimizdə yenə də gözəl binalar, evlər tikiləcək, bağ-bağat, yaşıllıqlar salınacaq, geniş, daha müasir təsərrüfat, iqtisadiyyat qurulacaq. Düşmənin dağıtdığı yerlərdə müasir, işıqlı kəndlərimiz, şəhərlərimiz salınacaq. Buna xalqımız tam əmindir. Qarabağımız, Şuşamız yenidən tikiləcək, düşmənə göz dağı olacaq. Bizim böyük xalqımız var. Biz döyüşçülər bu ağır sınaq günlərində hər kəsin ürəyinin cəbhədə olduğunu gördük. Xalqımız rəşadətli ordusunun, müdrik Ali Baş Komandanının yanındadır. Qarabağa doğru irəli! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

# Azərbaycanın dövlət müstəqilliyinin bərpasından 29 il keçir



*29 il əvvəl Azərbaycan Respublikası Ali Soveti Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi. Oktyabrın 8-də işə başlayan növbədənkənar sessiya məsələni 4 gün müzakirə etsə də, qərar verməyi bir həftə sonraya saxladı. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd qəbul edildi.*

Müstəqilliyinin ilk illərində özünün ağır günlərini yaşayan Azərbaycan xalqı qətiyyətli iradə nümayiş etdirərək gələcək taleyinə sahib çıxmağı bacardı. 1993-cü ildə xalqın təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev ölkəmizin müstəqilliyini əbədi və dönməz etdi. Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, əslində, Azərbaycan özünün əsl müstəqilliyini ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etdi. Məhz Ümummilli Liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi, siyasi və mənəvi psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Azərbaycanı müsəlman Şərqində ilk demokratik respublika olan Xalq Cümhuriyyətinin varisi elan edən ümummilli lider Heydər Əliyev müstəqilliyi qorumaq onu əldə etməkdən qat-qat çətindir məntiqi ilə nəhəng dövlət quruculuğu işlərinə başladı. Ulu Öndərin yorulmaz səyləri nəticəsində qısa müddətdə Azərbaycanın səsi ən nüfuzlu beynəlxalq təşkilatların kürsüsündən gəldi. Müstəqilliyin əvəzsiz bir nemət olduğunu və xalqın tarixi taleyində çox önəmli rol oynadığını böyük qürur hissi ilə bəyan edən Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi. Əsl müstəqillik isə öz sərvətlərinin tam sahibi olmaqdır. 1994-cü il sentyabrın 20-də Heydər Əliyevin müəllifi olduğu nəhəng neft müqaviləsi - "Əsrin kontraktı" imzalandı. Bununla da Azərbaycan ilk dəfə olaraq öz sərvətlərinin sahibi kimi çıxış etdi. Dünyanın aparıcı dövlətlərinin ən qabaqcıl şirkətlərinin bu kontraktda iştirakı isə ölkəmizin regionda əhəmiyyətini və nüfuzunu artırdı. Azərbaycan iri regional layihələrə, Avropa və bütövlükdə dünya enerji təhlükəsizliyi sisteminə qoşuldu. 1993-cü ildən başlayaraq dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən işlər və atılan məqsədyönlü addımlar Azərbaycanın bugünkü uğurları üçün ən etibarlı təməl oldu. Bir sözlə, əgər Azərbaycanın müstəqilliyi tarixi zərurətdən irəli gələn hadisə idisə, bu müstəqilliyin əbədiliyi və dönməzliyi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Ulu Öndərin müstəqilliyimizin qorunub saxlanması və möhkəmləndirilməsi istiqamətində yorulmaz səyləri bu gün onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Ümummilli Liderin çoxşaxəli fəaliyyətinin nəticələrinə arxalanaraq, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan siyasi, iqtisadi, sosial və hərbi sahələrdə nəzərəçarpan tərəqqi əldə edib. Azərbaycan yerləşdiyi bölgədə baş verən strateji, siyasi və iqtisadi proseslərin gedişinə təsir göstərməyə qadir olan ölkəyə çevrilib. Azərbaycan özünün siyasi və iqtisadi qüdrəti, strateji mövqeyi, zəngin təbii ehtiyatlarından xarici siyasət prioritetlərinin təmin olunmasında məharətlə istifadə edir. Milli maraqlara uyğun olaraq beynəlxalq birliyin əksər üzvləri ilə qarşılıqlı faydalı əməkdaşlıq həyata keçirilir. Dövlətimizin başçısının həyata keçirdiyi uğurlu xarici strategiyası nəticəsində ölkə iqtisadiyyatı özünün inkişaf sürətinə görə dünyada ən yüksək yerlərdə durur.

Azərbaycanın müstəqilliyi əbədi və dönməzdir!

**AZƏRTAC**

# Cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi və hərbi texnikası məhv edilib





***17 oktyabr 2020-ci il.***

Oktyabrın 16-sı gün ərzində və 17-nə keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli- Hadrut-Cəbrayıl istiqamətlərində əməliyyat şəraiti gərgin olaraq qalıb.

Qoşunlarımız düşmənin əvvəlcədən hazırlanmış müdafiə hədlərini müxtəlif istiqamətlərdə yarmağa, onu tutduğu mövqelərdən sıxışdıraraq çıxarmağa, qaçmağa məcbur etməyə və irəliləməyə nail olub.

Aparılan uğurlu hərbi əməliyyatlar nəticəsində döyüş təcrübəsi qazanan şəxsi heyətimiz əhəmiyyətli istiqamətlərdə əlverişli hədd, yüksəklik və mövqeləri tutur.

Azərbaycan Ordusu tərəfindən sutka ərzində həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 7 ədəd T-72 tankı, 2 ədəd BM-21 "Qrad" YARS, 8 ədəd D-30 və 1 ədəd D-20 haubitsa topları, döyüş sursatı ilə yüklənmiş 10 ədəd yük maşını və 7 ədəd digər avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Əldə olunan məlumata əsasən, döyüş əməliyyatları nəticəsində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının 1-ci taboru öz mövqelərini ataraq geri çəkilib, xeyli sayda ölən və yaralanan var.

Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə zolağında ehtiyatdan çağırılmış 300 nəfərədək hərbi vəzifəli döyüş mövqelərini özbaşına tərk edərək geri çəkilib. Hərbi vəzifəlilərin də arasında çoxlu sayda ölən və yaralanan var. Gücləndirmə məqsədilə alaya təhkim edilmiş xüsusi təyinatlı polis dəstəsinin üzvləri də döyüş mövqelərini tərk edərək qaçıb. Alayın bölmələrində ərzaq və döyüş sursatının çatışmazlığı müşahidə edilir.

Düşmən bölmələrində şəxsi heyətin yorğun və ümidsiz olması səbəbindən zabitlərə tabe olmama, həmçinin qorxu və təşvişə düşərək döyüşə girməkdən imtina etmə halları qeydə alınıb.

Qoşunlarımız bütün cəbhə boyu düşmənə dəqiq atəşlə zərər vurmaqla əməliyyat üstünlüyünü saxlayır.

* * *

Oktyabrın 17-də saat 11:11 radələrində Cəbrayıl rayonu istiqamətində bölmələrimizin mövqelərinə hava zərbələri endirməyə cəhd edən Ermənistan silahlı qüvvələrinə məxsus 1 ədəd Su-25 təyyarəsi Hava Hücumundan Müdafiə bölmələrimizin dəqiq atəşi ilə məhv edilib.

* * *

Oktyabrın 17-si gündüz saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri taktiki pilotsuz uçuş aparatı (PUA) vasitəsilə Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətindəki mövqelərimiz üzərində uçuşlar keçirməyə cəhd göstərib.

Düşmənin növbəti PUA-sı Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən dərhal aşkar olunaraq məhv edilib.

***18 oktyabr 2020-ci il.***

Oktyabrın 18-də saat 00.00-dan yeni humanitar atəşkəs rejiminin elan olunmasına baxmayaraq Ermənistan silahlı qüvvələri növbəti dəfə razılaşmanı kobud surətdə pozub.

Düşmən Cəbrayıl şəhərinin ətraf ərazilərini, eləcə də bu rayonun Araz çayı boyu yerləşən və işğaldan azad olunmuş kəndlərini gecə ərzində minaatan və artilleriya qurğularından atəşə tutub. Şəxsi heyət arasında itki yoxdur. Bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

Qoşunlar bütün cəbhə boyu əlverişli hədd, əhəmiyyətli yüksəklik və mövqelərdə müvafiq fəaliyyətlər həyata keçirir.

* * *

Oktyabrın 17-də gün ərzində yeni humanitar atəşkəs rejimi elan olunanadək cəbhənin Ağdərə və Füzuli-Hadrut istiqamətlərində əməliyyat şəraiti nisbətən sabit olub.

Azərbaycan Ordusu tərəfindən dünən gün ərzində həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin canlı qüvvəsi, 2 ədəd S-300 ZRK-nin raket tuşlama stansiyası, 5 ədəd T-72 tankı, 3 ədəd BM-21 "Qrad" YARS, 2 ədəd "Smerç", 1 ədəd D-20 haubitsa-topu və 1 ədəd KS-19 zenit topları, 6 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Qoşunlarımız bütün cəbhə boyu əməliyyat şəraitinə nəzarət edir.

* * *

Yeni atəşkəs rejimi elan olunmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri gecə ərzində müxtəlif istiqamətlərdə minaatanlar və artilleriya qurğularından istifadə etməklə cəbhədə vəziyyəti gərginlikdə saxlayıb.

Oktyabrın 18-i səhər saat 07.00-dan başlayaraq cəbhənin Ağdərə, Füzuli, Hadrut və Cəbrayıl istiqamətlərində düşmən hücuma keçməyə cəhd göstərib.

Azərbaycan Ordusunun bölmələri düşmənin hücum cəhdlərinin qarşısını alır.

* * *

Ermənistan Azərbaycanla dövlət sərhədində də vəziyyəti gərginləşdirməyə cəhd göstərib.

Oktyabrın 18-də saat 00.05-dən 04.00-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Çəmbərək rayonu istiqamətindən Gədəbəy rayonu, Berd rayonu istiqamətindən isə Tovuz rayonu ərazisindəki Azərbaycan Ordusunun döyüş mövqelərini iriçaplı silahlardan atəşə tutub.

* * *

Azərbaycan Ordusunun Füzuli istiqamətində uğurlu döyüş əməliyyatları zamanı Ermənistan silahlı qüvvələrinin hərbi hissəsi bölmələrimiz tərəfindən ələ keçirilib.

Düşmən döyüş texnikası, silah-sursat və digər hərbi vasitələri tərk edərək qaçmaq məcburiyyətində qalıb. Cəbhə boyu bütün istiqamətlərdə bölmələrimiz üstünlüyü əldə saxlayır.

* * *

Ermənistan silahlı qüvvələrinin son qüvvə kimi səngərlərə atdığı xüsusi təyinatlılar Azərbaycan əsgərinin həmləsinə tab gətirməyərək geri qaçmağa məcbur edilir.

Nümayiş olunan videoda Azərbaycan Ordusunun zirehli texnikası və əsgərlərinin erməni xüsusi təyinatlılarını necə qovduğu müşahidə olunur.

Videonun son kadrlarında düşmən səngərlərini tərk etdikdən sonra həmin mövqelərə doğru Azərbaycan əsgərinin irəliləməsi aydın görünür.

* * *

Oktyabrın 18-i saat 13:00-da Horadiz istiqamətində uçuşlar keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus taktiki pilotsuz uçuş aparatı (PUA) Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən aşkar olunaraq məhv edilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Mülki əhali arasında təbliğat-təşviqat işləri davam edir





*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əks-hücum əməliyyatları zamanı mənəvi-psixoloji təminat tədbirləri çərçivəsində keçirilən təbliğat-təşviqat işi davam edir.*

Ali Baş Komandan, Prezident İlham Əliyevin xalqa son müraciətində Füzuli şəhərinin və ətraf bir neçə kəndin azad edilməsi xəbəri operativ şəkildə çap olunmuş bülletenlər və səyyar radioqovşaq vasitəsilə mülki sakinlərə çatdırılır. Hər gün cəbhədən gələn qələbə xəbərləri hər bir azərbaycanlını sevindirir.

Keçirilən tədbirlər cəbhə boyu zonada yaşayan dinc sakinlər tərəfindən ruh yüksəkliyi ilə qarşılanır.

## "Qardaş Azərbaycan Ermənistanın bu alçaqlığına cavabı cəbhədə verir"

Cəbhə xəttində qəhrəman Azərbaycan Ordusunun qabağından qaçan Ermənistan bir daha namərdcəsinə və qorxaraq Gəncədə yaşayış yerlərinə raket zərbələri endirib.

AZƏRTAC xəbər verir ki, oktyabrın 17-də bu sözlər Türkiyənin Milli Müdafiə Nazirliyinin rəsmi "Twitter" səhifəsində yer alıb.

"Qardaş Azərbaycan bu alçaqlığa cavabı cəbhədə verir", - deyə qeyd olunub.

## "Ermənistanın törətdiyi vəhşiliyə səssiz qalmaq bu cinayətlərə şərik olmaq deməkdir"

Ermənistan müharibə cinayətləri törətməkdə, dinc əhalini qətlə yetirməkdə davam edir.

AZƏRTAC xəbər verir ki, oktyabrın 17-də bu sözləri Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu rəsmi "Twitter" hesabında bildirib.

"Uşaq-böyük demədən günahsız insanları öldürürlər. Bu vəhşiliyə səssiz qalmaq bu cinayətlərə şərik olmaq deməkdir. İnsan olmağı bacarmayanlar törətdikləri cinayətin hesabını verəcəklər. Can Azərbaycanın daim yanındayıq", - deyə nazir qeyd edib.

## Azərbaycan və Ermənistan müvəqqəti humanitar atəşkəsə razılıq verib

Azərbaycan Respublikası və Ermənistan Respublikası oktyabrın 18-i yerli vaxtla saat 00:00-dan etibarən müvəqqəti humanitar atəşkəsə razılıq verib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, bu qərar ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrini təmsil edən Amerika Birləşmiş Ştatları, Fransa Respublikası və Rusiya Federasiyasının prezidentlərinin 2020-ci il 1 oktyabr, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin 5 oktyabr tarixli bəyanatlarına əsasən və 2020-ci ilin 10 oktyabr tarixli Moskva bəyanatına uyğun olaraq qəbul edilib.

*Düşməndən azad olunan Hadrut qəsəbəsindən reportaj*

# "Tezliklə digər torpaqlarımızı da işğaldan azad edəcəyik"

*Hadrut qəsəbəsi 1992-ci il oktyabrın 2-dən Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdu. Burada yaşayan azərbaycanlılar soyqırıma məruz qalmış, sağ qalanlar isə doğma evlərindən didərgin düşmüşdülər. Rəşadətli ordumuzun uğurlu əks-hücum əməliyyatı nəticəsində işğalda olan torpaqlarımızın bir qismi mənfur düşməndən azad olundu və mühüm strateji əhəmiyyətə malik olan Hadrut qəsəbəsi, eyni zamanda, ətraf kəndlər şanlı ordumuzun tam nəzarətindədir. Ermənilər xeyli itki verərək, torpaqlarımızda qurduqları müvəqqəti mövqelərini tərk edib, geri çəkilirlər. Biz də işğaldan azad olunan Hadrut qəsəbəsinə gedib, yaşayış məntəqələrimizin azadlığı naminə fədakarlıq nümayiş etdirən əsgərlərimizlə həmsöhbət olduq.*





İlk həmsöhbətim zabit Fuad Nəbiyev bildirir ki, illər sonra bu yerlərə gəlmək böyük xoşbəxtlikdir. "Xalqımız qonaqpərvər və sülhsevərdir. İllərdir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirdik. Ancaq düşmən onlara verilən şansı düzgün dəyərləndirə bilmədi. Dinc əhaliyə qarşı törədilən son təxribat səbrimizin son damlasıydı. Ermənilərə layiqli cavab vermək, dinc əhalimizi qorumaq üçün əks-hücum əməliyyatına başladıq. İşğalda olan torpaqlarımızı tamamilə azad etmək üçün bütün qüvvələrimizi səfərbər etdik. Əminliklə deyə bilərəm ki, ordumuzun qələbəsini qeyd edəcəyimiz gün uzaqda deyil".

Zabitlə söhbətimizi yekunlaşdırıb, qəsəbəni mühafizə edən əsgərlərimizə yaxınlaşıram. Əsgər Fərid Aydilov deyir ki, hərbi xidmətə gəldiyi gündən torpaqlarımızın azadlığı uğrunda gedəcək döyüşlərin iştirakçısı olmaq istəyib. "Çox sevinirəm ki, mən də döyüşlərin iştirakçısıyam. Ali Baş Komandanımızın rəhbərliyi ilə 28 illik həsrətə son qoyduq. Hadrut qəsəbəsi cəsur və mərd hərbi qulluqçularımızın sayəsində ermənilərdən azad olundu. Ordumuz irəliləməkdə davam edir. Qarşıda bizi Şuşamız, Kəlbəcərimiz gözləyir."

Əsgər yoldaşının dediklərini təsdiqləyən əsgər Cahandar Cahandarov bildirir ki, Vətənimizin hər qarış torpağı bizim üçün əzizdir. "Bu gün haqq-ədalətin bərpa olunacağı, şəhidlərimizin qisasının alınacağı gündür. Buna görə də hamımız Ali Baş Komandanımızın ətrafında bir yumruq kimi birləşmişik. Necə ki, xalqımız bütün dünyaya ordusunun yanında olduğunu nümayiş etdirdi. Biz də xalqımızın etimadını doğrulduruq, bundan sonra da doğrultmağa davam edəcəyik. Ordumuz tərəfindən işğaldan azad olunan ərazilərimiz uğurlu əks-hücum əməliyyatının başlanğıcıdır. Tezliklə üçrəngli bayrağımız Qarabağımızın ən uca zirvəsində dalğalandıracağıq. İllərdir gözlədiyimiz mübarək günə az qalıb.

"İşğaldan azad olunan Hadrut qəsəbəsində xidmət aparmağın özü böyük fəxrdir. Çünki bu yerlər dədə-babalarımızın yurdudur, ata ocağıdır", - deyə əsgər Fuad Qafarzadə söhbətə qoşulur. - Düşmən bütün tarixi abidələrimizi, milli-mədəni nümunələrimizi məhv edib, ya da özününküləşdirməyə çalışıb. Erməni işğalçıları torpaqlarımızı işğal etdikləri gündən yaxşı bilirdilər ki, Azərbaycan əsgəri gec və ya tez doğma elobasına geri dönəcəkdir. Ölkə rəhbərliyinin apardığı uğurlu hərbi islahatlar nəticəsində bu gün torpaqlarımız azad edilir. Şükürlər olsun ki, mən də bu tarixi anın iştirakçısıyam.

Dünyanın ən güclü silahı yüksək döyüş hazırlığına malik olan əsgərdir. Ən qabaqcıl texnikalar hazırlıqsız əsgərin əlində sadəcə dəmir parçasıdır. Azərbaycan əsgərinin döyüş meydanında qazandığı uğurlar dünyanın ən güclü orduları sırasında olduğumuzu bir daha sübut etdi. Bütün bunların əsasında əsgərlərimizin Vətəninə olan sevgisi, bağlılığı dayanır. Əsgər Elmar İsmayılov da belə vətənpərvər oğullarımızdandır.

- Qədim torpaqlarımızdan olan Hadrut qəsəbəsini düşməndən azad etdiyimiz üçün sevincliyəm. Tezliklə digər rayonlarımızı da düşməndən azad edəcəyik. Arzumdur, Qələbə münasibətilə keçiriləcək paradın iştirakçısı olum.

Əsgər Elmar Nəsibov da silahdaşları kimi Vətənimizin dar gündə onun keşikçilərinin sırasında olmağı ilə fəxr edir. O deyir ki, torpaqlarımızın tamamilə işğaldan azad olunduğu gün şəhidlərimizin ruhu şad olacaq.

Əsgərlərimizlə işğaldan azad olunan Hadrut qəsəbəsində görüşmək bizi çox sevindirir. Hər birinin dilində Vətən sevgisi, gözlərində ermənі qəsbkarlarına nifrət sezilirdi. Xalqımız da belə cəsur, mərd və igid oğulları ilə qürur duyur.

Düşmənə qalxan əlləriniz var olsun, Azərbaycan əsgəri. Tezliklə Qələbə sevincini birlikdə Şuşada qeyd edəcəyik.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu"**



*Ovqat*

# Qələbə üçün döyüşürük!



Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatına qarşı ordumuzun həyata keçirdiyi əks-hücum əməliyyatı uğurla davam edir. Qızğın döyüşlər nəticəsində Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrinin minlərlə canlı qüvvəsini məhv edib, düşmənin yüzlərlə müxtəlif növ zirehli texnikası, artilleriyası, yaylım atəşli raket sistemləri, komanda idarəetmə və komanda müşahidə məntəqələri dağıdılıb və sıradan çıxarılıb. İşğalda olan torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edən qəhrəman oğullarımız düşməndən şəhidlərimizin qisasını alır və inamla irəliləyirlər. Belə döyüşçülərdən biri də baş gizir Nəriman Qurbanovdur. Hərbi qulluqçu qeyd etdi ki, 1996-cı ildən Vətənimizin müdafiəçiləri sırasında olmağı ilə fəxr edir. "Həmişə torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak etmək istəmişəm. Çox sevinirəm ki, bu gün mən də düşmənə qarşı döyüşür, şəhid olan qardaş və bacılarımızın qisasını alıram. Onlar bizim mövqelərimizi və yaşayış məntəqələrimizi iriçaplı silahlardan, minaatanlardan və müxtəlif artilleriya qurğularından intensiv atəşə tuturlar. Lakin düşmən təxribatının qarşısını layiqincə alır, onlara sarsıdıcı zərbələr endiririk".

Söhbət əsnasında öyrəndim ki, döyüşçümüzün övladı Orxan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi Vətən qarşısında borcunu yerinə yetirir. Baş gizir bildirdi ki, cəsur və vətənpərvər oğul böyütdüyünə görə fəxr edir. "Qürur duyuram ki, oğlum da illərdir işğalda olan torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edir. Düşməndən həmvətənlərimizin qisasını alır. Arzu edirəm ki, oğlumla birlikdə Laçına, Kəlbəcərə,... üçrəngli bayrağımızı sancaq. Əminəm ki, o günə çox az qalıb".

- Düşmən təşviş içindədir, - deyə gizir sözünə davam etdi. - Qorxu və həyəcan içində olan düşmən son çarəni mülki əhaliyə atəş açmaqda tapır. İntensiv olaraq kəndlərimizi atəşə tuturlar. Lakin Azərbaycan Ordusunun şəxsi heyəti belə təxribatların qarşısını ləyaqətlə alır. Bu onu göstərir ki, düşmən çıxılmaz vəziyyətdədir. Ancaq onun istənilən təxribat xarakterli hərəkəti bizi qarşıya qoyulan məqsəddən yayındıra bilməz. Hər birimizin məqsədi bütün ərazilərimizi ermənilərdən təmizləmək və qisasımızı almaqdır. Ali Baş Komandanımızın rəhbərliyi ilə hər birimiz yalnız qələbə müjdəsini eşitmək istəyirik. Bunun üçün də əlimizdən gələni əsirgəmirik. Xalqımız əmin olsun ki, torpaqlarımızın hər bir qarışını düşməndən təmizləyəcəyik.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# Böyük Qələbə günü təqvimimizə qızıl hərflərlə yazılacaq

Bayramlar sarıdan təqvimimiz çox zəngindir. İlimiz təzə günlə açılır, yeni ovqatla başlayır. Köhnə ilin köhnə qayğılarından qurtulub təzə ilə qədəm qoyuruq. Yeni ilin bizə böyük uğurlar gətirəcəyinə əminlik hissi ilə ömrümüzü üyüdən günləri yaşamağa davam edirik. Ömürsə özümüz də hiss etmədən yavaş-yavaş günləri əlimizdən alıb keçmişə qovuşdurur. Biz isə bir-birinə bənzəməyən arzularımızın izi ilə böyük sevinclə üzü gələcəyə, sabahlara doğru gedirik.



Təqvimimizdəki bütün bayramlar ürəyimizcədir, qürurvericidir. Onların hamısını sevinclə, təntənə ilə qeyd edirik. Amma hiss olunur ki, hansısa bir bayramın yeri görünür. Neçə illərdir hamımız həmin bayramın təqvimimizə yazılacağı günü intizarla gözləyirik. O bayram addımları ilə uşaqdan tutmuş böyüyə kimi hamımızın üzünü güldürəcək, qəlbini sevindirəcək. Onda torpaqlarımızın azadlığı uğrunda şəhid olanların da ruhu rahatlıq tapacaq. Onda ürəyimiz açılacaq, könlümüz fərəhdən don geyinəcək. O bayram Qələbə bayramıdır. O Qələbə bayramı ki, bizə bol-bol sevinc gətirəcək. O Qələbə bayramı ki, bizə erməni işğalında olan torpaqlarımızı qaytaracaq. O Qələbə bayramı ki, bir milyondan artıq köçkünü doğma ocaqlarına qovuşduracaq. O Qələbə bayramı ki, uzun illərin həsrətinin, kədərinin üstünə bol-bol sevinc çiləyəcək. O Qələbə bayramı ki, Qarabağ müharibəsinə son qoyacaq, yurda sülh və əmin-amanlıq gətirəcək.

İllərdən bəri səngərlərdə dayanan zabitin də, əsgərin də məqsədi, amalı düşməni məğlubiyyətə uğradıb, qələbə qazanmaqdır. Uzun illərdir xalqımız Qələbə gözləyir. Qoy Qələbə günü ilin hansı gününə, hansı ayına düşürsə-düşsün, bizim üçün fərq etməz, təki o gün gəlsin, təki o gün ömrümüzə günəş kimi doğsun, ulduzlar kimi parlasın. Həmin gün hər birimiz üçün əziz və doğmadır. O günü böyük təntənə ilə qeyd edəcək, yaddaşımızın dərin qatlarına yazacağıq. Böyük ovqat dolu xoş günü bizə yaşadacaqlarına görə zabit və əsgərlərimizin ünvanına xoş sözlər deyəcək, qəhrəmanlıqları ilə öyünüb fəxr edəcəyik.

Düşmən təxribatı nəticəsində sentyabrın 27-dən torpaqlarımızın qurtuluşu uğrunda döyüşlər başlayıb. Bu gün ordumuzun zabit və əsgərləri bütün cəbhə boyu erməni işğalçılarına sarsıdıcı zərbələr vurur. Azərbaycan əsgərinin gücü, qüdrəti qarşısında dayana bilməyən qəsbkarlar 28 il əvvəl işğal etdikləri torpaqlardan geri çəkilirlər. Düşmən nə qədər cəhd göstərsə də, heç bir istiqamətdə uğur qazana bilmir. Yurdumuzun qurtuluşu uğrunda döyüşlər başlayandan Ağdərə, Füzuli, Cəbrayıl, Xocavənd və başqa bölgələrdə yağılar geri oturdulur. Hər gün zabit və əsgərlərimizdən uğurlu xəbərlər eşidirik. Hər gün hansısa yaşayış məntəqəmiz erməni işğalçılarından azad edilir. Torpaqlarımızın qurtuluşu uğrunda döyüşlər başlanandan indiyə qədər şanlı ordumuz əllidən çox yaşayış məntəqəsini erməni işğalçılarından azad edib. İnanırıq ki, hər gün döyüşlərdə uğurlar, zəfərlər qazanan ordumuz tarix yazaraq, yaxın günlərdə üçrəngli bayrağımızı Şuşada, Xankəndidə asacaq, xalqımıza Böyük Qələbənin sevincini yaşadacaq. Onda işğaldan azad olunacaq torpaqlarımızdakı




dağların da, qayaların da üstündə güllər bitəcək, çiçəklər açacaq.

Həmin gün tariximizin səhifələrinə böyük və qızıl hərflərlə yazılacaq. Həmin günü xalqımız həmişə böyük təntənə ilə qeyd edəcək. Düşmən üzərində qazanılacaq Böyük Qələbədən sonra isə döyüşçülərimiz xalqımızın yaddaşında cəsur, qorxmaz və qəhrəman kimi yaşayacaqlar! Nə qəhrəmanlar, nə də qanla yazılan tarix heç vaxt unudulmur, heç vaxt yaddan çıxmır. Xalqımız Böyük Qələbənin sevincini yaşadan oğulları ilə həmişə fəxr edib öyünəcək.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

*Redaksiyamızın poçtundan*

# Azərbaycan əsgəri Vətən müharibəsini qələbə ilə başa çatdıracaq

Əks-hücum əməliyyatı başlayandan bəri hamımızın düşüncələrindən bir istək dikəlir: Azərbaycan Ordusunun döyüşləri, qələbələri. Qazanılan qələbələrə görə sevinirik, bu qələbələri Böyük Qələbənin başlanğıcı bilirik. Əminik ki, əsgərlərimiz bu döyüşləri tam qələbə ilə başa çatdıracaq, Azərbaycan bayrağı işğaldan azad ediləcək bütün ərazilərimizdə dalğalanacaqdır.

Azərbaycan Respublikasının Prezidenti oktyabrın 17-də xalqa müraciətində dedi: "Heç bir qüvvə bizi dayandıra bilməz". Bu qətiyyət Azərbaycan əsgərinin qələbə ruhunu daha da kükrədib. Neçə-neçə kəndi, Hadrut qəsəbəsini, Cəbrayıl şəhərini işğaldan azad edən igidlərimiz, qəhrəmanlarımız Füzuli şəhərini də ermənisizləşdirdi. Bu, gözəl qələbədir, vacib qələbədir. Bu qələbələr bizi Böyük Qələbəyə yaxınlaşdırır. 2016-cı ilin Aprel döyüşlərində düşmənin 10 tankını məhv edən Tahir Misirxanov kimi döyüşçülərimiz yaxın günlərdə düşməni texnikasız qoyacaq, düşmənin ordusu tamamilə dağıdılacaqdır.

Düşmən dünyanın iri dövlətlərinin başçılarından minbir dillə xahiş etdi ki, atəşin dayandırılmasına nail olsunlar. Humanitar atəşkəs elan edildi. Sonra nə oldu? Düşmən öldürülmüş əsgərlərini döyüşdən çıxartmadı, Gəncəni, Mingəçeviri atəşə tutdu. Qoy dünya Ermənistan kimi faşist əqidəli dövlətə havadarlıq edənləri qınasın...

Ermənistan məğlubiyyət ərəfəsindədir. Bu ərəfədə düşmən daha azğın, bəşəriliyə zidd təxribatlar törədir. Dinc əhalinin ölümü yüzlərlə binanın dağıdılması ilə nəticələnən belə təxribatlara görə Ermənistan beynəlxalq məhkəmədə cavab verməlidir!

**Şəbnəm BEHBUDZADƏ,**
**Bakı şəhəri**

Biz gənclər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qürurla dediyi bütün fikirləri kimi, "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır" fikrini də həmişə qürurla yaşayırıq. Bu qürur bizim hər birimizin azərbaycançılığımızda da yaşadılır.

Sentyabrın 27-də başlayan əks-hücum əməliyyatı Azərbaycan Ordusunun gücünün təsdiqi kimi davam etdirilməkdə, qələbələr qazanılmaqdadır. İctimaiyyət əmindir ki, bu qələbələr Şuşada, Cıdır düzündə tamamlanacaq.

Ordumuzun malik olduğu silahları da, döyüş hazırlığı da, mənəvi-psixoloji hazırlığı da düşməni darmadağın etməyə qadirdir. Düşmən bu qadirliyin acısını son döyüşəcən yaşayacaqdır. Azərbaycan əsgəri torpaqlarımızı işğaldan azad edəcək, dünyanın bir terror klanı məhv ediləcəkdir. Dünya bu qələbəsinə görə, Azərbaycan Ordusuna minnətdar olacaqdır.

Neçə-neçə strateji yüksəklik, onlarla kənd, Hadrut qəsəbəsi, Cəbrayıl və Füzuli şəhərləri işğaldan azad edildi. Oktyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciətində bildirdi ki, indiyə qədər düşmənin 234 tankı, 49 PDM-i, 16 özüyeriyən artilleriya qurğusu, 2 "Uraqan" sistemi, 2 "Elbrus" əməliyyat taktiki raket kompleksi, 5 zenit-raket kompleksi və s. məhv edilib. Bunlar 20 günlük döyüşlərdə olub. Düşmən ərazilərimizdən çıxmasa, ordusu tamamilə məhv olacaq...

Azərbaycan Ordusu döyüşə-döyüşə düşməni ərazilərimizdən çıxardır, yeni, bu ərazilər işğaldan azad edilir. Düşmən müqavimət göstərməyə cəhd etsə də, buna gücü çatmır. Haradan kömək alırsa-alsın, Azərbaycan Ordusunun qalibiyyət döyüşlərinin qarşısını ala bilməyəcək!

**Gülsurə HÜSEYNOVA,**
**Bakı şəhəri**

Tibb xidməti polkovniki Əliyev Hacıağa Əlikişi oğluna 2015-ci ildə verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 630
Nüsxə 4000